## *TARİXİN TƏDRİSİ METODİKASI*

UOT 372.894

***Aytac İmaməli qızı Məmmədli***
*Azərbaycan Dövlət Pedaqoji Universitet*

# ÜMUMİ TARİX DƏRSLƏRİNDƏ İKT-DƏN İSTİFADƏNİN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏKİ VƏZİYYƏTİNƏ DAİR

***Айтадж Имамали гызы Маммедли***
*Азербайджанский Государственный Педагогический Университет*

# О СОСТОЯНИИ ИСПОЛЬЗОВАНИЯ ИКТ НА УРОКАХ ВСЕОБЩЕЙ ИСТОРИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Aytaj Imamali Mammadli***
*Azerbaijan State Pedagogical University*

# ON THE SITUATION OF THE USE OF ICT IN GENERAL HISTORY LESSONS IN GENERAL EDUCATION SCHOOLS

**Xülasə.** Məqalədə problemin aktuallığı əsaslandırılıb. İKT-dən təlim-tərbiyəvi imkanlarına münasibət bildirilib. Pedaqoji elmlər sahəsində qabaqcıl təcrübənin mahiyyətinə aydınlıq gətirilib. Bakı şəhərinin və Qəbələ rayonunun qabaqcıl tarix müəllimlərinin İKT-dən istifadəyə dair təcrübələri müşahidə edilmiş, öyrənilərək ümumiləşdirilmişdir. Ümumi tarix dərslərində İKT-dən səmərəli istifadənin təlim-tərbiyə prosesindəki rolu dəyərləndirilmişdir.
***Açar sözlər:*** *İKT, ümumi tarix, ümumtəhsil məktəbləri, qabaqcıl təcrübə, metod, yollar, vasitələr.*

**Резюме.** В статье обосновывается актуальность проблемы. Выражено отношение к образовательным возможностям ИКТ. Уточнена сущность передового опыта в области педагогических наук. Наблюдался, изучался и обобщался опыт передовых учителей истории города Баку и Габалинского района по использованию ИКТ. Оценена роль эффективного использования ИКТ на уроках всеобщей истории в учебном процессе
***Ключевые слова:*** *ИКТ, всеобщая история, обшеобразовательные школы, передовой опыт, метод, пути, средства*

**Summary.** The article substantiates the urgency of the problem. It was commented on the educational opportunities from ICT. The essence of advanced experience in the field of pedagogical sciences has been clarified. The experiences of leading history teachers of Baku and Gabala region on the use of ICT were observed, studied and generalized. The role of effective use of ICT in general history lessons in the educational process was evaluated.
***Key words:*** *ICT, general history, general education schools, advanced experience, methods, ways, tools.*

İnformasiya texnologiyası informasiya resursundan istifadə proseslərinin əmək sərfini azaltmaq üçün məlumatların toplanmasını, işlənməsini, saxlanılmasını, yayılmasını və nümayiş etdirilməsini təmin edən texnoloji zəncirə birləşdirilmiş metodlar, proqram təminatı və avadanlıqlar məcmusudur.

İnformasiya texnologiyalarının yaradılması və geniş yayılmasının məqsədi cəmiyyətin və ölkədə bütün həyatın informasiyalaşdırılmasının inkişaf etdirilməsi problemini həll etməkdir. Son vaxtlar informasiya texnologiyası ən çox kompüter texnologiyası kimi başa düşülür. Xüsusilə, informasiya texnologiyaları məlumatların saxlanması, çevrilməsi, qorunması, işlənməsi,

ötürülməsi və qəbul edilməsi üçün kompüter və proqram təminatlarının istifadəsi ilə məşğul olur.

Kompüter istifadə edilən dərslərdə dərs prosesinin müəyyən problemlərini həll etmək üçün kompüterlərdən istifadə etmək mümkün və məqsədəuyğun sayılır. Məhz bu prosesdə şagird öyrənilən materialı daha dərindən başa düşür, dərsin mövzusunu hiss edir və özünü yaradıcı şəkildə göstərir. Hər bir kompüter dərsi, prinsipcə, inteqrasiya olunur – fənn tapşırıqlarına əlavə olaraq, informativ kursun vəzifələri də həll olunur.

Azərbaycan Respublikası prezidenti İ.H. Əliyevin "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı" proqramının (2005-2007-ci illər) (1, 2004-cü il, N35) (8091) təsdiqi ilə əlaqədar 21 avqust 2004-cü il tarixli qərarı çox böyük əhəmiyyət kəsb edir. Məhz həmin qərardan irəli gələn vəzifələri yerinə yetirmək məqsədi ilə tarix təlimində İKT-dən istifadə problemini tədqiqat obyekti seçmişik.

Tədqiqatlarımızı həqiqi faktlara əsaslandıraraq aparmaq üçün respublikamızın şəhər və məktəblərində ümumi tarix dərslərində İKT-dən necə istifadə olunmasını müşahidə edərək ümumiləşdirmişik.

Qabaqcıl təcrübənin öyrənilməsini tarixin tədrisi metodikası elminin tədqiqat metodlarından biridir. Prof. M.A. Danilov yazır: "pedaqoji təcrübənin öyrədilib ümumiləşdirilməsi o halda həqiqi elmi metod olar ki, onun vasitəsi ilə obyektiv əhəmiyyəti olan hər hansı yeni şey açılır və bu yeniliyə dəqiq pedaqoji xarakteristika verilir"(2, s. 15).

Deməli, qabaqcıl təcrübədə müəyyən yenilik (heç olmasa yeniliyin rüşeymləri) olmalıdır. Bu gün meydana çıxmış yeni pedaqoji texnologiyalar, eləcə də tarix dərslərində İKT-dən istifadənin yeni metod və priyomları belə yeniliyə nümunə ola bilər.

Metodik ədəbiyyatlarda qabaqcıl təcrübənin əsas meyarları aşağıdakı qaydada şərh olunur:

1. Yenilik elmi cəhətdən əsaslandırılmalıdır;
2. Yenilik yüksək nəticə verməlidir;
3. Yenilik stabil olmalı, sistem təşkil etməli, şərait dəyişəndə də uzun müddət yaxşı nəticə verməlidir;
4. Yenilik şagirdlərin güclərinə müvafiq olmalıdır;
5. Yenilik müəllimlərin hazırlığına uyğun olmalıdır;
6. Yenilik optimal olmalıdır, müəllimin və öyrənənlərin işini yüngülləşdirməlidir;
7. Yenilik geniş tətbiq edilməlidir.

Respublikamızın ümumtəhsil məktəblərində müasir və interaktiv təhsil modelinin həyata keçirilməsi məktəbin və müəllim heyətinin qarşısına yeni tələblər qoyur. Bu tələblərdən ən başlıcası tarix təlimində İKT-dən səmərəli istifadə edilməsidir. Bunun üçün məktəblərdə bir sıra hazırlıq işləri həyata keçirilib. İlk növbədə pedaqoji heyətin İKT savadının artırılmasına diqqət yetirilməlidir.

Yeni informasiya texnologiyalarının təhsildə, o cümlədən ümumtəhsil məktəblərində tətbiqinə dair Respublikamızda bir sıra ciddi tədqiqatlar aparılmış, dərsliklər, dərs vəsaitləri, metodik göstərişlər hazırlanmışdır. Bunlardan T.M. Əliyev, Ə.Q. Pələngov və digərlərinin işlərini göstərmək olar.

"UNESCO tərəfindən qəbul edilən tərifə görə, informasiya texnologiyaları, məlumatların emalı və saxlanması ilə məşğul olan insanların işinin səmərəli təşkili metodlarını öyrənən birbiri ilə əlaqəli elmi, texnoloji, mühəndislik fənləri kompleksidir, hesablama texnologiyası və istehsal avadanlıqları, onların praktiki tətbiqləri ilə əlaqəli sosial, iqtisadi və mədəni problemlərin təşkili və qarşılıqlı əlaqə üsullarını əhatə edir. İnformasiya texnologiyasının özü kompleks təlim, yüksək ilkin xərclər və yüksək texnologiya tələb edir. Onların tətbiqi proqram təminatının yaradılması, mütəxəssis hazırlığı sistemlərində informasiya axınlarının formalaşması ilə başlamalıdır" (3).

Bu gün respublikamızda uğurla aparılan təhsil islahatlarının nəticəsi olaraq ümumtəhsil məktəblərində öyrənilən bütün fənlər kimi tarix fənninin məzmunu da yenilənmişdir. Belə ki, təhsil sisteminin informasiyalaşdırılması ilə əlaqədar əsas hədəflər müəyyənləşdirilmiş, nəzərdə tutulan tədbirlərin xeyli hissəsi həyata keçirilmişdir. Əlamətdar hadisələrdən biri odur ki, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi 2010-cu ili ölkəmizdə "Təhsildə İKT ili" elan edib və bu kampaniya çərçivəsində konfranslar, seminarlar, müxtəlif stimullaşdırıcı və həvəsləndirici aksiyalar, müsabiqələr həyata keçirilir" (4).

Müasir İKT-lər həm də auditoriyanın yaradıcılığı üçün güclü bir stimuldur. Ekranda səpələnmiş cümlələri tutarlı mətnə çevirərək əyri mətndə sürətlə dəyişikliklər etmək imkanı yaranır. Ancaq sinif şagirdlərinin istəklərinə uyğun olaraq kompüterdən öyrənmə köməkçisi kimi istifadə edə bilməsi üçün istifadəçi bacarıqlarının universallığına diqqət yetirmək lazımdır. Uşaqlar bu gün müasir iş vasitələrindən istifadə etmək hüququna malikdirlər.

"Təcrübə göstərir ki, sinifdə informasiya texnologiyalarından istifadə digər fənlərdə olduğu kimi, tarix elmində də tədris prosesini dəyişə, effektiv edə və onu şagirdlər üçün daha təsirli və cəlbedici edə bilər. İnformasiya texnologiyalarından istifadə edərək öyrənmək, gənc üçün məmnuniyyət əldə edə biləcəyi və özünü təsdiq edə biləcəyi yaradıcı bir axtarışa çevrilir" (5).

Təqdimatda Osmanlı imperiyasının ərazisi elektron lövhədə işıqlandırılırdı.

2-ci qrupun şagirdləri təqdimatda Balkan müharibələrinin başlanması və gedişi haqqında materialları şərh edərkən Balkan müharibələrinin gedişini elektron lövhədə işıqlandırırdılar. Osmanlı imperiyasının bölüşdürülməsinə aid karikaturaları da elektron lövhədə işıqlandırır və həmin karikaturaların əsas məğzini açırdılar.

3-cü qrupun şagirdləri Qacarlar İranı haqqında geniş məlumat verir, İranın XIX əsrin ortalarında mövcud olmuş ərazilərini elektron lövhədə işıqlandırırdılar.

4-cü qrupun şagirdləri XIX əsr və XX əsrin əvvəlləri Qafqaz və Türk dünyası üçün gərgin olan bir dövrü tarixi faktlarla əsaslandırıb şərh edirdilər. Şagirdlər Şimali Qafqaz və Mərkəzi Asiyadakı Türk xalqlarının milli-azadlıq hərəkatı haqqında məlumat verirdilər. təqdimatda rus müstəmləkəçiliyinə qarşı mübarizə aparan liderlərin portretləri lövhədə işıqlandırılır, onların siyasi fəaliyyəti şərh edilirdi.

Bakıdakı H. Əliyev adına liseyin tarix müəllimi Hafiz Cabbarov "Türk dünyası. Qacarlar İranı və Qafqaz" mövzusunu tədris edərkən yeni materialın öyrədilməsinə həsr edilmiş induktiv dərs tipindən istifadə edir. Hafiz müəllim doqquzuncuları dörd qrupa bölür. Bölünmüş qruplara aşağıdakı adlarda iş vərəqləri paylayır:

1. Osmanlı imperiyası;
2. Balkan müharibələri. Balkan müharibələrinin səbəb və nəticələri;
3. Qacarlar İranı;
4. Qafqaz və Türk dünyası.

Şagirdlərin təqdimatı İKT-dən istifadə ilə müşayiət olunurdu. Belə ki, birinci qrup şagirdləri elektron lövhədə Sultan III Səlimin, Sultan IV Mustafanın, Sultan Əbdülməcidin portretlərini verməklə onların idarəçilik fəaliyyətlərini də səciyyələndirirdilər.

Qəbələ rayonu Hacıallı tam orta məktəbinin tarix müəllimi F. Əlifov "Çin, Hindistan, Yaponiya" mövzusunu tədris edərkən orta məktəb mühazirə metodundan istifadə edib. Bu məqsədlə Fuad müəllim İKT-nin imkanlarından maksimum istifadə etmişdir. Müəllim mühazirənin gedişini – sxemləri, şəkilləri və illüstrasiyaları da daxil olmaqla elektron lövhədə işıqlandırmışdı.

Mövzu: Çin, Hindistan və Yaponiya.

Mühazirənin planı:

1. Çin XIX əsrdə
2. Hindistan XIX əsrdə
3. Yaponiya XIX əsrdə

Mühazirənin təchizi: Elektron lövhə, kompüter, dərslik, mövzu ilə bağlı İNTERNET resurslarından istifadə.

Fuad müəllimin mühazirəsinin mətnini elektron lövhədə işıqlandıraraq təlim materiallarını tamamilə İKT-dən istifadə etməklə həyata keçirirdi. Müşahidələrimizdən aydın oldu ki, o, mühazirəni ahəstə-ahəstə deyir, hər bir tarixi anlayışı şərh edir, portretləri, karikaturaları, illüstrasiyaları nümayiş etdirərək əyani materialları dərsin mövzusu ilə pedaqoji ustalıqla uzlaşdırır.

Sonda müəllim doqquzuncuların təlim materiallarını necə mənimsədiklərini yoxlamaq və mənimsənilmiş biliklərin möhkəmləndirilməsi məqsədi ilə doqquzunculara aşağıdakı məzmunda suallarla müraciət edir:

1. Çindəki tiryək müharibələrinin əsas cəhətlərini səciyyələndirir.
2. Taypinlər hərəkatının digər ictimai hərəkatlarından fərqli cəhətlərini şərh edin.
3. Taypinlər hərəkatının Çin üçün əhəmiyyətini müəyyənləşdirin.
4. Hindistanda ingilis istismarının səciyyəvi cəhətlərini şərh edin.
5. Sipahilər üsyanını səciyyələndirin.
6. Yaponiya-Rusiya ziddiyətlərinin səbəblərinə aydınlıq gətirin.

Doqquzuncuların 75%-i verilən suallara yetərli cavablar verir, fikirlərini sadə və aydın şəkildə şərh edirlər.

**Problemin aktuallığı:** Ümumi tarix dərslərində İKT-dən istifadəyə dair qabaqcıl təcrübənin öyrənilib ümumiləşdirilməsi istiqamətində aparılan işin inkişaf etdirilməsi probleminin bu vaxta qədər tədqiqat obyekti kimi seçilməməsi problemin aktuallığını meydana çıxarır.

**Problemin yeniliyi:** Respublikanın ümumtəhsil məktəblərində ümumi tarix dərslərində İKT-dən istifadə üzrə qabaqcıl məktəb təcrübəsi öyrənilmiş və ümumiləşdirilmişdir. Bu mənada qabaqcıl təcrübənin öyrənilib ümumiləşdirilməsi yenilik kimi dəyərləndirilir.

**Problemin praktik əhəmiyyəti:** Ümumi tarix dərslərində İKT-dən istifadəyə dair yaradılmış qabaqcıl iş təcrübəsindəki metodik göstərişlər problemin praktik əhəmiyyətini əsaslandırır.

**Ədəbiyyat:**

1. “Azərbaycan müəllimi” qəzeti, -2004, 27 avqust. N35(8091)
2. https://en.unesco.org/countries/azerbaijan
3. http://anl.az/down/meqale/rabitadunyasi/2010/dekabr/150294.htm
4. http://musabiqe.edu.az/upload/iblock/5d3/tehsilde_ikt_muhazire.doc

**E-mail:** aytac.memmedli096@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **M.M. Əmirov,**
*tarix ü.elm.dok., dos.* **S.M. Seyidova**

**Redaksiyaya daxil olub:** 10.06.2021